**Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

***(28 avqust 2002-ci il)***

Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini təmin etmək məqsədi ilə qərara alıram:

1.Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3. Bir ay müddətində Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin xərclər smetasını və işçilərinin say həddini təsdiq etsin, onun fəaliyyətinin təmin olunması ilə bağlı maddi-texniki təchizat məsələlərini həll etsin;

bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir

Bakı şəhəri, “28” avqust 2002-ci il.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**